# XƏYALLA XƏYALDA SÖHBƏTİM



*Nəcməddin MÜRVƏTOV*

## *Proloq*

Bir ömür yaşayır, hərə bir ömür,
Sevincli-fərəhli, qəm, kədər dolu.
Olur, günlər anla şərəfə dönür,
Olur, düşür ona əzabın bolu.

Sən nə sayırsan say, fələk sayan var,
Qurur istəyiylə haqqı, hesabı.
Döşünə döyəni xəcil edir, xar,
Bağlanır uğura haqdan kitabı.

Uçurum kənarından ümidsizləri
Zirvəyə qaldırır, çıxarır önə.
Ağıl bəxş eyləyir, qüdrət, hünəri,
Qartaltək şığıya, aslana dönə.

Edir bəziləri gözü, könlü tox,
Eləcə xeylini qul ac nəfsinə.
Qudurğan, yolunu azanlar həm çox,
Girən xeyirxahlıq edən bəhsinə.

Cansızlar diriykən saysız, işə bax,
Can verib qazanan ölümsüzlüyü.
Ölümün gözünə baxmağıyla şax,
Haqqı qoruyan çox, dürüst, düzlüyü.

"Bir ömür" hərəyə Tanrının payı,
Istəsən boşa ver, istəsən yaşa.
"Bir ömür"-yox bundan qeyri savayı,
Ötəcək anbaan, yetəcək başa.

## Söhbətimiz

Dönməklə ağrıya, qəlblərdə dərdə,
Yaşayır indi o xatirələrdə.
Sorub dinləməklə hərəni tək-tək,
Görməkdən bu ərə hüdudsuz istək,
Məlallı əhvalı köçdü canıma,
Qarışdı ruhuyla hər bir anıma.
Onunla xəyalda xeyli vaxt, zaman
Keçirdim, sorular saysız zənn, güman
Tapdı cavabını, heyrətdə qaldım,
Sanki bu igiddən bir təklif aldım:
" Müəllim, danışım hekayətimi,
Ömrümdən, günümdən ötən hər dəmi,
Söyləyim birbəbir qələmə al, yaz
Tanısın məni də el-obam bir az".
İndi məzarının önündəyəm mən,
Surranın arxası. Uca təpədən
Birgə seyr edirik kəndi, kəsəyi,
Şəksiz yadımdadır onun istəyi.
Uzun röyasından oyanmışdı o,
Ruhuyla yanımda dayanmışdı o.
Verib əlimizi torpağa dayaq,
Yamacda yanaşı, burda bir sayaq
Əyləşdik, başlanğıc verəm söhbətə,
Çevirib üzümü ondan, xəlvətə
Alnımda halımın buz, soyuq təri,
Silib göz yaşımı, boğub qəhəri
Dilləndim birtəhər, nələri bilməm,
Söylədim dolaşıq, artıq, ya ki kəm.
Bilmirəm, axır ki susdum nəhayət,
Növbə onunkuydu, başladı əlbət:

## Xəyalın dedikləri

Üçüncü övladdım ailədə mən,
Bəxti, taleyindən, ya qismətindən,
Anam itirmişdi o uşaqları.
Bundan çox köksündə dərdi, qubarı
Varmış, doğulmuşdum nəzir-niyazla.
Həzin həm yanğılı səslə, avazla,
Laylalar oxuyub o zaman mənə,
Tanrıya yalvarıb hey dönə-dönə.
Təşvişdə ötməklə günü, hər anı,
Kəsdirib adıma necə qurbanı.
Hamı həzz duyurmuş "toppuş"luğumdan
Eşitdiyim "can"dı, mızıltıma "can".



Saysız-hesabsızdı hoqqalarım da,
Həm də inadcıldım hər qərarımda.
Almaq istəsəm nə, alaydım gərək,
Özümdə olanı tutmaqla bərk-bərk,
Verməzdim kimsəyə, gülüşərdilər,
Mənlə oynardılar, əyişərdilər.
Azca ayaq tutub addımlayanda,
Qatıb-qarışdırıb nəsə hər yanda,
Harda su görsəydim cumardım ora.
Batar zığ-palçığa, iş-gücdən yora,
Anamı beləcə incitsəm də çox,
Bircə söz deməzdi inan kəmə yox,
Qucardı, sıxardı köksünə bərk-bərk .
Bu sonsuz məhəbbət, hüdudsuz istək
Hopardı, keçərdi sanki qanıma
Ruhuma, dönürdü anam canıma.
Onun varlığıyla alırdım nəfəs,
Tək o, təkcəcə o yetərimdi bəs.
Burdakı məktəbə yaxın, yanında
Kiçik evimiz var çay kənarında.
Həyət-bacasında hər səliqəsi,
Bağında ağaclar, hər cür meyvəsi.
Geniş tövlələrdə davar, mal-qara,
Yoxdu heç ehtiyac gedək bazara.
Zəhmətkeş atamdı, fədakar anam,
Səbəb ki, özümü bəxtəvər sanam.
İş-gücsüz ötmürdü burda bircə an.
Yayda tədarükdə alaf, ot, saman
Atam pucur-pucur hey tər tökürdü,
Anam yorğunluqdan sanki çökürdü.
Qışın bambaşqaydı qayğıları da,
Mən də onlarlaydım olsalar harda.
İraq qoymamağa gözündən bir an,
Çəkməklə ardıyca dilində "can-can",
Anam tükənməyən suallarıma
Cavabda, hər kərə qurban balama
Deyib əzizlərdi, öpər, qucardı,
Uçar, varlığımdan sanki uçardı.
Gəzib dolanardım dərədə, dağda,
Can yaxan istidə, boranda, qarda.
Gədikdə gizlənər, kəklik pusardım,
Çayda aşsüzənlə balıq tutardım.
Öyrənib atamdan hər çətin işi,
Sanardım özümü yepyekə kişi.
Əynimdə geyimim uyğun son dəbə,
Vaxt gəldi kənddə də getdim məktəbə.
Anam yerə-göyə sığmırdı o gün,
Sanki qurulmuşdu mənə toy-düyün.

Dörd il təhsil aldım burda-Surrada,
Bax, bu illərdə də torpağa, yurda
Ruhən varlığımla bağlandım yaman,
Anladım, bu kənddən heç vaxt, heç zaman
Ayrıla bilmərəm, sevgim dağlara
O qədər böyükdü, gedərsəm hara,
Bir xiffət duyurdum ürəyimdə çox,
Sanırdım Surrama şəksiz əvəz yox.
Doğmalıq duyurdum torpaq, daşında,
Dağlar, dərələrin hər qarışında
Harda nə ot bitir, nə var büsbütün,
Bələddim yerinə, mənimlə heç kəs
Onları tapmağa etməzdi, yox bəhs.
Meylim çoxdan çoxdu, quram, yaradam,
Hər gün bir işimdən həzz, ləzzət dadam.
Dayaqdım atama, anama kömək,
Örnəkdim onların gözündə, örnək.
Sonralar təhsili şabranda aldım,
Neçə il piyada yollarda qaldım.
Yorurdu çox məni gedib-gəlmələr,
Olurdu evə gec dönən vədələr.
Əzab çəkirdim çox anamdan yana,
Ağır iş görməyi qıymırdım ona.
Belə asta-asta ötürdü illər,
Nikbin böyüyürdüm, çox üzügülər,
Şən, şux bir oğlandım, nəzər-diqqəti
Çəkirdim, barəmdə el qənaəti
Yaxşıydı, anama sevincdi bu hal,
Deyirdi: "Şəkərsən mənə,oğul, bal".
Qardaşım o illər ali məktəbə
Hazırlaşmasından, həmin səbəbə,
Evdə hər iş-gücə məndim yarıyan,
Hesabdaydı, vallah, günümdə hər an.
Məktəb illərindən xatirələrim
O qədər şirindir, müəllimlərim
Arxam, dayağımdı, verib nəsihət,
Məni yönəldirdi düz yola, əlbət.
Lazım da deyildi danışam, dinəm,
Halımı baxışdan Gülşən müəlliməm
Duyurdu, ruhuma, vallah qınağı
Sığaldı elə bil, həm də danlağı.
Bilirdi xeylidir çətinliklərim,
Sıxırdı onu da, olsa kədərim.
Şahnaz müəlliməm riyaziyyatı
Mənə çatdırmağa vaxtı, saatı
Unudurdu tamam, suallarımdan
Bezib yorulmazdı, tapdıqca imkan
Xəbər göndərərdi:"Xəyal, gəl bu gün,
Sənə ayırmışam vaxtı büsbütün".
Məntiqli, tutarlı izahatları,
Məsələ, misallar, məlumatları
Dərkimdə açırdı nur işıqlı yol,
Bundan ona sevgim hüdudsuzdu, bol.
Tanınmış şairdi Bayram müəllimim,
Mən də "uydururdum" kəsrim-kəmim
Olurdu, belədə öz dərnəyində
Diqqətlə hər sözə, misraya, bəndə
Açırdı çox geniş bir müzakirə,
Yarada şövq, həvəs yazıya, şeirə.
Vardı inanılmaz söz ehtiyatı,
Yaşam öyrədirdi bizə həyatı.
Elə beləydilər qeyriləri də,
Heyif ki o günlər qaldı geridə.
Olmaqdan hər kəsə mehrim, diqqətim,
Biraz da məktəbdə vardı hörmətim.
Doğmalıq görürdüm yoldaşlarımdan,
Dayaq bir-birinə olmaqdan hər an.
Böyük zövq alırdıq bu birgəlikdən,
Yoxdu bir sirrimiz gizlin kimsədən.
Bacı-qardaşlardıq qızlara əlbət,
Məndə lap əvvəllər onlara diqqət
Ayrıydı, durardım qulluqlarında,
İşarə yetərdi olsaydım harda,
Özümü çatdıram ora tez, həmən,
Ayrı macəraydı hər gündən ötən.

*(Davamı var)*